Azerbaijan Energy Regulatory Agency

# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

## VAKANSİYA ELANI

## Hüquqi təminat və təhlil şöbəsi – Böyük hüquqşünas

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycan Respublikasında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin tənzimlənməsini, müəssisələrin fəaliyyətinin təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarətin təşkilini həyata keçirən publik hüquqi şəxsdir.**

### VƏZİFƏ ÖHDƏLİKLƏRİ:

- Müvafiq sahədə normativ hüquqi aktların, normativ xarakterli aktların və Agentliyin təşkilati-sərəncamverici aktlarının layihələrini və layihəyə əlavə olunan sənədləri hazırlayır, yaxud hazırlanmasında iştirak edir;
- icraatına daxil olan sənədlərin hüquqi ekspertizasını keçirib rəy verir;
- icraatına daxil olan sənədlərə viza verir;
- İşçi qruplarda, habelə beynəlxalq təşkilatlar və xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə görüşlərdə iştirak edir;
- İcraatına daxil olan sorğuların cavablandırılması üçün yazılı və (və ya) şifahi arayışlar, hesabatlar və rəylər verir, o cümlədən xarici qanunvericiliyin araşdırmasını həyata keçirir;
- Şöbə müdirinin göstərişinə əsasən digər hüquqşünasların verdiyi rəy və təklifləri ümumiləşdirir;
- Vəzifəsi üzrə şöbə müdiri və ya şöbə müdirinin müavini tərəfindən verilən digər göstərişləri yerinə yetirir;

### TƏLƏBLƏR:

- Ali təhsil (hüquqşünaslıq);
- İnzibati hüquq, mülki hüquq, prosessual hüquq, əmək hüququ və beynəlxalq hüquq sahələri, habelə energetika hüququ institutu üzrə peşəkar bilik və bu sahələrdən birində və ya bir neçə üzrə təcrübəyə malik olmalı;
- Qanunvericilik texnikasını bilməli və bu sahədə təcrübəyə malik olmalı;
- Yaş həddi 25-45 aralığı
- İxtisası üzrə azı 3 il iş stajı (normativ hüquqi aktlarla iş təcrübəsi olan namizədlərə üstünlük veriləcək);
- Microsoft Office proqramlarında işləmə bacarığı;
- Problemlərin həlli və razılığın əldə edilməsi bacarığı;
- Azərbaycan dilini səlis, ingilis dilini B1 səviyyəsində bilməli, rus dili arzuolunandır.

### DİGƏR:

- Əmək bazarına uyğun rəqabətli əmək haqqı və mükafatlandırma;
- İş yerinin ünvanı: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 84.

Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini vacancy@regulator.gov.az poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (**Hüquqi təminat və təhlil şöbəsi – Böyük hüquqşünas**) qeyd edin.